# BAKI AVRASİYA UNİVERSİTETİ

BAAU Elmi Şurasının
“31” yanvar 2025-cı il tarixli
qərarı ilə (protokol № EŞ06-01/25)
qəbul edilmişdir.

# TƏHSİLALANLARIN UNİVERSİTETDAXİLİ NİZAM-İNTİZAM QAYDALARI

**BAKI - 2025**

**MÜNDƏRİCAT**


| | | |
|---|---|---|
| 1 | Ümumi müddəalar | 3 |
| 2 | Tədris vaxti və ondan istifadə | 3 |
| 3 | Universitetin vəzifələri | 4 |
| 4 | Universitetin hüquqları | 4 |
| 5 | Təhsilalanların (dinləyicilərin) vəzifələri | 5 |
| 6 | Təhsilalanların (dinləyicilərin) hüquqları | 6 |
| 7 | Təhsilalanların (dinləyicilərin) mükafatlandirılması | 7 |
| 7.1 | Mükafatlandırma formaları | 7 |
| 7.2 | Mükafatlandırmanın tətbiqi qaydaları | 7 |
| 8 | İntizam xətasi | 7 |
| 9 | İntizam məsuliyyəti | 9 |
| 10 | İntizam məsuliyyətinin tətbiqi qaydaları | 11 |
| 11 | İntizam tənbehi vermək səlahiyyəti olan şəxs | 12 |

## 1. Ümumi müddəalar

1.1. Bakı Avrasiya Universitetində təhsilalanların Universitetdaxili nizam-intizam Qaydaları (bundan sonra Qaydalar) "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa, təhsil sahəsində digər qanunvericilik aktlarına və Universitetin Nizamnaməsinə uyğun olaraq hazırlanmışdır.
1.2. Bu Qaydalar Universitetin bütün təhsilalanları və dinləyiciləri üçün məcburi olmaqla, onların Universitetdaxili davranış və fəaliyyət qaydalarını, qarşılıqlı münasibətlərini, fəaliyyətinin nəticəsinə, ümumi davranış və intizam qaydalarına əməl etmə səviyyəsinə görə mükafatlandırma və intizam məsuliyyəti tədbirlərinin tətbiqini tənzimləyən normalar məcmusundan ibarətdir.
1.3. Bu Qaydalar təhsil prosesi iştirakçılarının hüquqlarına və azadlıqlarına hörmət edilməsi, qanunçuluq, qanun qarşısında bərabərlik, təqsirsizlik prezumpsiyası, ədalətlilik və intizam xətalarının qarşısının alınması prinsiplərinə əsaslanır.
1.4. Bu Qaydaların məqsədi aşağıdakılara nail olmaqdır:
- tədris intizamının möhkəmləndirilməsi;
- təhsil prosesi iştirakçılarının bir-birinə qarşılıqlı hörmət göstərməsi;
- təhsilalanların Universitetin Nizamnamə, əmr və sərəncamlarının, göstərişlərinin tələblərini yerinə yetirərək intizamlılıq nümayiş etdirməsi;
- təhsilalanlar arasında baş verə biləcək xoşagəlməz və qeyri-etik halların qarşısının alınması;
- təhsilalanların Universitetin maddi, mənəvi və intellektual dəyərlərinə qayğı ilə yanaşması.

## 2. Tədris vaxtı və ondan istifadə

**2.1. Ali təhsilin bakalavriat və magistratura səviyyəsi üzrə əyani təhsilalma formasında:**
- hər tədris ili sentyabrın 15-dən başlayır və iyulun 5-də başa çatır;
- hər tədris ilinin müddəti 40 həftədir. Tədris ili iki semestrdən (payız və yaz) ibarətdir. Hər semestr 20 həftədir, 15 həftə nəzəri təlimə (dərslərin keçirilməsinə), 5 həftə imtahanların keçirilməsinə ayrılır;
- yay tətili müddətində 6 (altı) həftədən çox olmayaraq, yay semestri də təşkil oluna bilər;
- nəzəri təlim (dərslər) payız semestrində 15 sentyabrdan 28 dekabr tarixinədək, yaz semestrində 16 fevraldan 31 may tarixinədək keçirilir.
- payız semestrinin imtahanları 29 dekabr - 01 fevral, yaz semestrinin imtahanları 01 iyun-05 iyul tarixlərində keçirilir.
- hər tədris ilində payız semestrinin imtahan sessiyası başa çatdıqdan sonra, 2 fevraldan 15 fevral tarixinədək 2 həftə müddətinə qış tətili, yaz semestrinin imtahan sessiyası başa çatdıqdan sonra, 06 iyuldan 14 sentyabr tarixinədək 10 həftə müddətinə yay tətili verilir.

İxtisas təcrübəsinin müddəti təhsil proqramlarına uyğun olaraq müəyyən edilir, keçirilmə vaxtı ixtisasın tədris planı ilə müəyyənləşdirilir.
**2.2. Ali təhsilin bakalavriat və magistratura səviyyəsi üzrə qiyabi təhsilalma formasında:**
- tədris ili 32 həftədir. Tədris ili iki semestrdən (payız və yaz) ibarətdir. Hər semestr 16 həftədən (o cümlədən 1 həftə imtahan sessiyası) ibarətdir.

2.3. Bakalavriat və magistratura səviyyəsində təhsilalanların həftəlik tədris yükünün maksimum həcmi 45 saatdır (auditoriya və auditoriyadankənar məşğələlər nəzərə alınmaqla). Həftəlik auditoriya dərsləri bakalavriat səviyyəsində maksimum 30, magistratura səviyyəsində isə 16 saatdır.
Əyani forma üzrə məcburi auditoriya dərslərinin maksimum həcmi ayrı-ayrı ixtisaslar üzrə təhsil proqramları ilə müəyyənləşdirilir. Qiyabi forma üzrə isə tələbələrin auditoriya dərslərinin həcmi bakalavriat səviyyəsində ildə 180-240, magistraturada isə 120-160 saat nəzərdə tutulur.
2.4. Bütün növ dərslər üçün 2 akademik saat müəyyənləşdirilir və bir akademik saat 45 dəqiqədir. Akademik saatlararası fasilə 5 dəqiqədir.
2.5.Tədris planında tədris işinin həcmi kredit vahidləri ilə müəyyənləşdirilir və bir kredit 30 saata bərabərdir.
2.6. Tədris məşğələləri tədris və işçi tədris planlarına, tədris prosesinin qrafikinə uyğun tərtib edilmiş dərs cədvəli üzrə keçrilir. Dərs cədvəli semestr üzrə tərtib edilir, semestrin başlanmasına ən geci 10 gün qalmış tədris işləri üzrə prorektor tərəfindən təsdiq edilir və fakültənin cədvəl üçün nəzərdə tutulmuş lövhəsində asılır. Əlavə məşğələ və məsləhət saatları üçün ayrıca cədvəl tərtib edilir.

2.7.Təhsilalanların dərslərə davamiyyətinin uçotu fənn qruplarının dərs jurnalında aparılır. Həmin jurnallar kafedralarda saxlanılır və fənn müəllimləri tərəfindən doldurulur.
2.7.1. Təhsilalanların dərsə davamiyyəti fənn müəllimi tərəfindən dərsin başlanğıcında yoxlanır, dərsdə iştirak edənlərə "iştirak edir" ("i/e" ilə işarə olunur), iştirak etməyənlərə "qaib" ("q/b" ilə işarə olunur) yazılır. "Qaib"lər dərsin başlanmasından ən geci 5 dəqiqə müddətində, "iştirak edir" qeydi isə dərsin sonunda yazılır.
2.7.2. Təhsilalanların dərs başlanandan, həmçinin "qaib" yazıldıqdan sonra dərsə buraxılmasına və dərs zamanı auditoriyadan çıxmasına yalnız fənn müəlliminin icazəsi ilə yol verilir.
2.8. Tədris məşğələləri 2 növbədə keçirilir. Tədris məşğələlərinin (dərslərin) başlanma və qurtarma saatı dərs cədvəlinə uyğun olaraq tənzimlənir.
2.9.Tədris məşğələsinin keçirilməsi zamanı kənar şəxslərin (rəhbər vəzifəlilər və tədris intizamına əməl edilməsinə nəzarət səlahiyyəti verilmiş əməkdaşlar istisna edilməklə) auditoriyaya daxil olması və dərsi dayandırması yolverilməzdir.
2.10. Hər bir tədris məşğələsi başlanana qədər və dərs fasiləsində müvafiq fakültə dekanlığının və kafedraların laborantları tədris məşğələsinin keçirilməsi üçün zəruri tədris vəsaitlərini və aparat–texniki vasitələri hazırlayır.
2.11. Universitetdə iki istirahət günü olan beşgünlük tədris həftəsi müəyyən edilir.
2.12. Həftənin şənbə və bazar günləri həftələrarası istirahət günləri olmaqla təhsilalanlar üçün istirahət vaxtı hesab edilir.
2.13. İş günü hesab edilməyən bayram günləri, 20 yanvar Ümumxalq hüzn günü, Azərbaycan Respublikası Milli Məclisi deputatlarının, Azərbaycan Respublikası Prezidentinin, Azərbaycan Respublikasında bələdiyyə üzvlərinin seçkiləri, həmçinin referendum zamanı səsvermə günü seçki (referendum) keçirilən ərazidə iş günü olmadığına görə təhsilalanların tədris vaxtında müvafiq dəyişiklik aparılır.
2.13.1. Aşağıdakı hallarda da təhsilalanların tədris vaxtında dəyişiklik aparılır:
- həftələrarası istirahət günləri və iş günü hesab olunmayan bayram günləri üst-üstə düşdüyünə görə bilavasitə bayram günündən sonrakı iş günü həftələrarası istirahət günləri hesab edilir;
- Qurban və Ramazan bayramlarının iş günü hesab olunmayan başqa bayram günü ilə üst-üstə düşməsi ilə əlaqədar növbəti iş günü bayramla əlaqədar qeyri-iş günü hesab edilir.
- bayram və həftələrarası istirahət günləri biri digərindən əvvəl və ya sonra gələrsə, iş və istirahət günlərinin yeri müvafiq icra hakimiyyəti orqanının qərarı ilə dəyişdirildikdə.

## 3. Universitetin vəzifələri

3.1. Universitet təhsilalanlara münasibətdə aşağıdakı vəzifələri yerinə yetirır:
a) təhsil prosesini dövlət təhsil standartlarına uyğun təşkil etmək və yüksək elmi-metodiki səviyyədə həyata keçirilməsini təmin etmək;
c) təhsilalanlara qəbul olunmuş təhsil standartlarına və normativlərinə, təhlükəsizlik, mühafizə və gigiyena üzrə tələblərə cavab verən normal təhsil şəraiti yaratmaq;
ç) təhsilalanların Universitetin kitabxana, idman kompleksi, digər elmi, mədəni və sosial infrastrukturundan istifadə etməsinə imkan yaratmaq;
d) təhsilalanları fiziki və psixi zorakılığın bütün formalarından qorumaq, onları zərərli vərdişlərdən çəkindirmək;
e) təhsilalanları vətənpərvərlik ruhunda tərbiyə etmək, onlara vətəninə və xalqının ənənələrinə bağlılıq, sosial məsuliyyət hissləri aşılamaq və onları sağlam düşüncəli vətəndaş kimi yetişdirmək;
ə) təhsil proqramlarını müvəffəqiyyətlə başa vuran təhsilalanlara təhsil haqqında müvafiq dövlət sənədi vermək;
f) qanunvericiliklə nəzərdə tutulmuş digər vəzifələri həyata keçirmək.

## 4. Universitetin hüquqları

4.1. Universitet aşağıdakı hüquqlara malikdir:
a) təhsil prosesini sərbəst şəkildə təşkil və idarə etmək;
b) təhsilalanlardan Universitetin Nizamnaməsinin və bu Qaydaların tələblərini, müqavilə üzrə öhdəliklərini, əmr, sərəncam və göstərişləri yerinə yetirməyi tələb etmək;
c) tədris formasını, metodlarını və vasitələrini sərbəst seçmək;
ç) təhsildə yüksək göstəricilər əldə etmiş təhsilalanları həvəsləndirmək və mükafatlandırmaq;

d) Universitetdaxili nizam-intizam qaydalarının tələblərini pozan təhsilalanlara intizam tənbehi tətbiq etmək və həmçinin Universitetdən xaric etmək;
e) semestr ərzində fənn üzrə ayrılmış auditoriya saatlarının 20 (iyirmi) faizindən çoxunda iştirak etməyən tələbəni həmin fəndən imtahana buraxmamaq;
e) qanunvericiliklə nəzərdə tutulmuş digər hüquqları həyata keçirmək.

## 5. Təhsilalanların (dinləyicilərin) vəzifələri

5.1. Universitetin təhsilalanlarının vəzifələri aşağıdakılardır:
- təhsil aldığı ixtisas üzrə təhsil proqramını, tədris planı və tədris proqramlarını yerinə yetirmək;
- dövlət təhsil standartlarına uyğun bilik, bacarıq və vərdişlərə yiyələnmək;
- təhsil aldığı ixtisasın (ixtisaslaşmanın) tədris qrafikinə uyğun olaraq növbəti tədris ilində dinləmək istədiyi fənləri seçməklə fərdi tədris planını Universitetin akademik təqvimi üzrə müəyyən edilmiş müddətdə tərtib edərək fakültəyə təqdim etmək və həmin tədris ili üçün qeydiyyatdan keçmək;
- fərdi tədris planına daxil etdiyi fənlərin təhsil haqqını Universitet tərəfindən müəyyən edilmiş müddətdə ödəmək və geçikməyə yol verməmək;
- fərdi tədris planına daxil etdiyi fənlər üzrə tədris məşğələlərinin bütün növlərində və biliyin qiymətləndirilməsində (cari və aralıq qiymətləndirmə) iştirak etmək;
- tədris məşğələlərinə dərs cədvəli ilə müəyyən edilmiş vaxtda gəlmək, fənni tədris edən müəllimdən icazəsiz auditoriyaya daxil olmamaq və tədris məşğələsi başa çatmadan auditoriyanı icazəsiz tərk etməmək;
- üzrsüz səbəbdən dərsdən yayınmamaq, tələbə yoldaşlarını dərsdən yayınmaya təhrik etməmək və digər təhrikedici təşəbbüslərə yol verməmək;
- üzrlü səbəblərdən dərsdə və imtahanda iştirak etmədiyi halda müvafiq sənədlərini fakültə dekanlığına vaxtında təqdim etmək, iştirak etməmə səbəbini təhrif etməmək və yalan informasiya verməmək;
- özü haqqında məlumatları (bioqrafik məlumatlar, şəxsiyyət vəsiqəsi, qeydiyyat və yaşayış ünvanı, özünün və valideynlərinin telefon nömrəsi, elektron poçt məlumatları və s.) fakültə dekanlığına vaxtında və təhrif etmədən təqdim etmək, fakültə dekanlığını bu məlumatlarda baş verən sonrakı dəyişikliklər barədə yazılı şəkildə məlumatlandırmaq;
- Universitet əməkdaşlarının, pedaqoji işçilərinin şərəf və ləyaqətinə hörmətlə yanaşmaq;
- təhsil sahəsində qanunvericiliyin tələblərinə, təhsil müəssisəsinin Nizamnaməsinə, bu Qaydaların tələblərinə və tədris intizamına riayət etmək;
- dövlət, cəmiyyət, ailə və özü qarşısında məsuliyyətini dərk etmək;
- Universitetdə dərs prosesinin təşkili və keçirilməsi, biliyin qiymətləndirilməsi, imtahan prosesinin təşkili və keçirilməsi qaydalarının tələblərinə əməl etmək, plagiata və köçürmə hallarına yol verməmək;
- etik normalara və təlim-tərbiyə prosesi ilə bağlı qaydalara əməl etmək, ümumi əxlaq və etik davranış qaydalarını pozmamaq;
- Universitetin mülkiyyətində olan və təhsilalanların istifadəsinə verilmiş olan əmlakı qorumaq, tədrisdə istifadə olunan avadanlıqlara, cihazlara, digər texniki vasitələrə, tədris vəsaitlərinə və s. qayğı ilə yanaşmaq, korlanmasına yol verməmək, əşya və avadanlıqları tədris auditoriyalarından kənara çıxarmamaq;
- öz hərəkətləri ilə Universitetə maddi zərər vurduqda və ya Universitetin işgüzar nüfuzuna xələl gətirdikdə, Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq dəymiş zərəri vaxtında ödəmək;
- Universitet binasına giriş-çıxış qaydalarına əməl etmək, tələbə kartını daxil etməklə turniketdən keçmək, tələbə kartını başqasına verməmək və öz kartı vasitəsilə digər şəxslərin turniketdən keçidinə şərait yaratmamaq;
- tələbə kartına məsuliyyətlə yanaşmaq, həmin kartı itirdikdə və ya yararsız hala saldıqda öz vəsaiti hesabına yenisini əldə etmək;
- Universitet kitabxanasında bu Qaydalar və kitabxananın Əsasnaməsi ilə müəyyən edilmiş daxili davranış, nizam-intizam rejiminə əməl etmək və kitabxana fonduna ziyan vurmamaq, vurduğu zərəri müəyyən edilmiş qaydada ödəmək;
- qanunvericilikdə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

5.2. Hər bir akademik qrupa birbaşa rəhbərliyi qrup nümayəndəsi həyata keçirir.
5.2.1. Qrup nümayəndəsi:
- birbaşa fakültə dekanına tabedir, onun sərəncam və göstərişlərinin icrasını təmin edir;
- müvafiq ixtisasın akademik məsləhətçisi ilə əlaqədə fəaliyyət göstərir.

5.2.2. Qrup nümayəndəsinin funksiyalarına daxildir:

- qrup tələbələrinin bütün növ tədris məşğələlərinə davamiyyətinin uçotunu (dərs jurnalında qeydiyyat istisna edilməklə) aparmaq, fakültə dekanına tədris məşğələlərinə gecikən və dərsə gəlməyən tələbələrlə bağlı gündəlik məlumat vermək;
- akademik qrup təhsilalanlarının tədris olunan fənlər üzrə fikir, rəy, şikayət və təkliflərini mütəmadi olaraq fakültə dekanına, yaxud təhsil aldığı ixtisasın akademik məsləhətçisinə təqdim etmək;
- auditoriyanın, tədris avadanlığı və inventarın qorunub saxlanmasını təmin etmək;
- fənn sillabuslarını, mühazirə mətnlərini və imtahan suallarını fənn müəllimlərindən vaxtlı-vaxtında alaraq akademk qrupun təhsilalanlarına çatdırmaq;
- dərs cədvəlindəki dəyişikliklər barədə tələbələri məlumatlandırmaq;
- qrupun Universitetin ictimai-mədəni həyatında fəallığının artırılması üzrə iş aparmaq.
5.2.3. Qrup nümayəndəsinin bu vəzifələrə uyğun olan göstərişləri qrupun bütün tələbələri üçün məcburidir.
5.2.4. I tədris ilində (kursda) akademik qrupların qrup nümayəndələri müəyyənləşdirilərkən qəbul zamanı təhsilalanların topladığı ballar nəzərə alınır və qrup nümayəndələri ən yüksək bal toplayan təhsilalanlar sırasından seçilməklə, birinci semestrin ikinci tədris həftəsində fakültə dekanının təqdimatı əsasında tədris işləri üzrə prorektorla razılaşdırmaqla rektorun əmri (sərəncamı) ilə təyin edilir. Üzərinə düşən vəzifələri layiqincə yerinə yetirməklə özünü doğruldan qrup nümayəndələri növbəti tədris illərində (semestrlərində) də öz vəzifələrində saxlanır. Öz öhdəliklərini yerinə yetirməyən, yaxud yerinə yetirə bilməyən qrup nümayəndələi öz vəzifələrindən azad edilir. Vəzifəsindən azad edilmiş, yaxud başqa ixtisasa, başqa ali təhsil müəssisəsinə köçürülmüş qrup nümayəndəsinin yerinə yeni qrup nümayəndəsi seçilir. Bu halda qrup nümayəndələri təhsilalanlar arasından onların aşağıdakı parametrlər üzrə qazandığı nəticələr nəzərə alınmaqla təyin edilir:
- əvvəlki semestrdə qazandığı müvəffəqiyyət göstəriciləri;
- intizamlılıq və etik-mədəni davranışı səviyyəsi;
- fakültədə və akademik qrupdakı nüfuzu;
- vəzifə məsuliyyətini dərk etmə, funksiyalarını yerinə yetirmə və idarəçilik səriştəsi;
- Universitetin ictimai həyatında və tələbə özünüidarəetmə orqanlarının: Tələbə Gənclər Təşkilatının və Tələbə Elmi Cəmiyyətinin işində fəallığı.
5.2.5. Qrup nümayəndələrinin vəzifəsindən azad olunması və yeni qrup nümayəndələrinin təyin edilməsi fakültə dekanının təqdimatı əsasında tədris işləri üzrə prorektorla razılaşdırmaqla, rektorun əmri (sərəncamı) ilə həyata keçirilir.

## 6. Təhsilalanların (dinləyicilərin) hüquqları

6.1. Universitetin təhsilalanları aşağıdakı hüquqlara malikdir:
a) tədris planları və tədris proqramları əsasında dövlət təhsil standartlarına uyğun keyfiyyətli təhsil almaq və bilik qazanmaq;
b) tədris planlarında nəzərdə tutulmuş tədris fənlərini, semestrlər üzrə kreditlərin miqdarını, təhsilverənləri və akademik məsləhətçiləri (tyutorları) sərbəst seçmək;
c) Universitetin mövcud infrastrukturundan (tədris-istehsalat, elmi-tədqiqat, informasiya, mədəni-məişət, idman, yataqxana, kitabxana və s.) istifadə etmək;
ç) müəyyən edilmiş qaydada ixtisasını, təhsil formasını dəyişmək və başqa ali təhsil müəssisəsinə köçürülmək;
d) elmi-tədqiqat fəaliyyəti ilə məşğul olmaq;
e) fasiləsiz təhsil almaq;
ə) sağlamlıq üçün təhlükəsiz və zərərsiz təhsil şəraiti ilə təmin olunmaq;
f) insan ləyaqətini və şərəfini alçaldan, insan hüquqlarına zidd hərəkətlərdən müdafiə olunmaq, özünün şərəf və ləyaqətinə hörmət tələb etmək;
g) təhsilini müəyyən olunmuş qaydada müvəqqəti dayandırmaq;
ğ) təhsil qanunvericiliyi ilə müəyyən edilmiş qaydada biliyinin qiymətləndirilməsini və yenidən qiymətləndirilməsini tələb etmək;
h) təhsil prosesinin təşkilində və idarə olunmasında fəal iştirak etmək, öz fikir və mülahizələrini sərbəst ifadə etmək, tədrisin keyfiyyətini yüksəltmək üçün səmərələşdirici təkliflər vermək;
x) Universitetin elmi, ictimai, sosial və mədəni həyatında iştirk etmək, elmi cəmiyyətlərin, dərnəklərin, birliklərin və digər yaradıcı təşkilatların yaradılmasında iştirak etmək;

i) elmi konfransların, seminarların, yığıncaqların və görüşlərin, habelə təhsil həyatı ilə bağlı digər tədbirlərin keçirilməsində iştirak etmək;
j) qanunvericilikdə nəzərdə tutulmuş digər hüquqları həyata keçirmək.
6.2. Qanunvericiliklə müəyyən edilmiş hallar istisna olmaqla, Universitetdə təhsilalanların təhsil prosesi ilə bağlı olmayan işlərə və tədbirlərə cəlb edilməsinə yol verilmir.

## 7. Təhsilalanların (dinləyicilərin) mükafatlandırılması

Mükafatlandırma təhsilalanın təhsil aldığı müddətdə fəaliyyətinin konkret nəticələrinin, qazandığı nailiyyətlərin, Universitet və cəmiyyət üçün xidmətlərinin dəyərləndirilməsi və qiymətləndirilməsidir.
Mükafatlandırma həvəsləndirmə tədbiri kimi tətbiq olunur və təhsilalanın fəaliyyətinin stimullaşdırılması, onu daha yüksək nəticələr əldə etməyə təşviq etmək məqsədi daşıyır.

### 7.1. Mükafatlandırma formaları

Təhsildə yüksək nailiyyətlər qazanan, Universitetin və cəmiyyətin ictimai və mədəni həyatında fəal iştirak edən, Universitetdaxili nizam-intizam qaydalarına əməl edilməsində fərqlənən təhsilalanlar (dinləyicilər) aşağıdakı həvəsləndirmə vasitələri ilə mükafatlandırılır:
a) valideynə, təhsil aldığı məktəbə təşəkkür məktubu göndərmək;
b) tərifnamə ilə təltif etmək;
c) fəxri diplomla ("İlin fəxri tələbəsi", "İlin fəxri məzunu" və s.) təltif etmək;
ç) fəxri fərmanla təltif etmək;
d) qiymətli hədiyyə vermək;
e) pul mükafatı vermək;
ə) Univesitetin vəsaiti hesabına adlı təqaüd təyin etmək, yaxud müxtəlif dövlət orqanları və təşkilatlar tərəfindən təhsilalanlar üçün ayrılmış adlı təqaüdə təqdim etmək;
f) müxtəlif məbləğdə təhsil haqqı güzəşti tətbiq etmək;
g) Universitetdaxili təcrübə proqramlarına (tədris planı ilə nəzərdə tutulmuş, yaxud əlavə müddətdə) cəlb etmək, yaxud Universitet hesabına xaricdə staj proqramına göndərmək;
h) təhsilini başa vurduqdan sonra Universitetdə uyğun vakansiya üzrə işə müsabiqədənkənar qəbul etmək, digər müəssisələrə işə qəbul üçün tövsiyə və zəmanət verməklə namizədliyini dəstəkləmək;
j) digər həvəsləndirmə vasitələrini tətbiq etmək.

### 7.2. Mükafatlandırmanın tətbiqi qaydaları

7.2.1. Təhsilalanın mükafatlandırma üçün təqdim olunması onun əməli fəaliyyətinin konkret nəticələrini, qazandığı nailiyyətləri qiymətləndirən məsul şəxs (Universitetin rəhbər vəzifəli şəxsləri, fakültə dekanları, struktur bölmə rəhbərləri, tələbə ictimai özünüidarəetmə orqanları, tədbir təşkilatçıları və s.) tərəfindən həyata keçirilir.
7.2.2. Məsul şəxs təhsildə təhsildə yüksək nailiyyətlər qazanan, Universitetin və cəmiyyətin ictimai və mədəni həyatında fəal iştirak edən, Universitetdaxili nizam-intizam qaydalarına əməl edilməsində fərqlənən təhsilalanın (dinləyicinin) mükafatlandırılması üçün müvafiq əsaslandırmanı (təqdimatı) *(Əlavə 1)* Universitet rektoruna təqdim edir.
7.2.3. Kifayət qədər əsaslar olduğu halda, təhsilalanın qazandığı nailyyətlərin əhəmiyyətlilik dərəcəsinə uyğun mükafatlandırma növlərindən biri seçilməklə müvafiq qərar qəbul edilir. Əsas olmadığı halda, mükafatlandırmadan imtina edilir.
7.2.4. Mükafatlandırma barədə qərar verilməsi Universitet rektorunun səlahiyyətinə aiddir. Rektorun əmri ilə bu səlahiyyət həmçinin, prorektorlara (tədris və ümumi işlər üzrə) da verilə bilər.
7.2.5. Mükafatlandırma ilə bağlı uçot müvafiq fakültə dekanlığında xüsusi nəzərdə tutulmuş qeydiyyat jurnalı *(Əlavə 2)* (yaxud elektron qeydiyyat) üzrə aparılır.

## 8. İntizam xətası

8.1. Təhsilalanların bu Qaydalarla müəyyən olunmuş normaları qəsdən və ya ehtiyatsızlıqla pozan aşağıdakı hərəkətləri Universitetdaxili nizam-intizam pozuntusu olmaqla intizam xətası hesab edilir:
**a) dərs prosesinin pozulması:**

- müntəzəm olaraq dərsə gecikmək, fənni tədris edən müəllimdən icazəsiz auditoriyaya daxil olmaq və tədris məşğələsi başa çatmadan auditoriyanı icazəsiz tərk etmək;
- üzrsüz səbəbdən dərsdən yayınmaq, tələbə yoldaşlarını dərsdən yayınmaya təhrik etmək və digər təhrikedici təşəbbüslərə yol vermək;
- üzrlü səbəblərdən dərsdə iştirak etmədiyi halda müvafiq sənədlərini vaxtında fakültə dekanlığına təqdim etməmək, dərsdə iştirak etməməsini əsaslandırmaq üçün yalan və qəsdən təhrif olunmuş informasiya vermək;
- dərs zamanı auditoriyada tədris prosesi ilə əlaqəsi olmayan audiotexniki vasitələri dinləmək;
- dərs zamanı auditoriyada mobil telefondan, fənn proqramında (sillabusunda) əyani-texniki vasitə kimi istifadə nəzərdə tutulduğu hallar istisna edilməklə, istifadə etmək;
- dərs zamanı auditoriyaya içki (su istisna edilməklə) və ya yemək gətirmək;
- dərs zamanı dəhlizdə ucadan danışmaq və səs-küy yaratmaq, bununla da, audoriyalarda təhsilalanların diqqətini yayındırmaq və tədris prosesinin gedişinə mane olmaq.
**b) imtahan prosesinin pozulması:**
- imtahanın başlanmasına 15 dəqiqə qalmış imtahan otağında qeydiyyatdan keçməmək və imtahana gecikmək;
- imtahan keçirilən auditoriyada imtahan başlanandan sonra yerini dəyişmək, gəzişmək və digər hərəkətlərlə imtahanın gedişinə mane olmaq;
- imtahanda səs salmaq, digər təhsilalanlarla danışmaq və onlara mane olmaq;
- imtahan keçirilən auditoriyaya mobil telefon, digər rabitə vasitələri və elektron cihazlar, kitab, konspekt, icazə verilməyən digər köməkçi vasitələr gətirmək;
- imtahanda icazə verilməyən köməkçi vasitələrdən istifadə etmək, həmin vasitələrdən, yaxud digər təhsilalanların cavab blanklarından köçürmək;
- digər təhsilalanların onun cavab blankından köçürməsinə şərait yaratmaqla onların nəticəsinə təsir göstərmək;
- imtahan biletini və cavab blanklarını zədələmək, onları nəzarətçiyə təhvil vermədən imtahan zalından çıxmaq;
- yandırıcı, partlayıcı, kəsici, deşici və digər bu kimi əşyalarla imtahan otağına daxil olmaq, özü ilə siqaret gətirmək;
- imtahan nəzarətçilərinin imtahan qaydasına tabe olmaq barədə göstərişlərinə tabe olmamaq, onlara qarşı kobudluq etmək;
- başqa təhsilalanın əvəzinə imtahan vermək, yaxud öz əvəzinə başqa şəxsi imtahan prosesinə cəlb etmək.
İmtahan prosesi zamanı aşkar edilən, yuxarıda qeyd edilən hallar, imtahan başa çatdıqdan sonra videomüşahidə zamanı aşkar edildiyi halda da intizam xətası hesab edilir və intizam məsuliyyətinin tətbiqi üçün əsasdır.
**c) Universitet əmlakına qarşı yönəldilmiş hərəkətlər:**
- istifadəsində olan əmlakı qəsdən korlamaq, partaların üzərini, divarları yazmaq;
- istifadəsinə verilmiş kompüter və digər texniki avadanlıqlardan təyinatı üzrə istifadə etməmək, informatika və informasiya texnologiyalarının tədrisi, elektron kitabxanadan istifadə üçün nəzərdə tutulmuş kompüterləri tədris proqramından kənar məqsədlər üçün istifadə etmək;
- əmlakı icazəsiz olaraq binadan çıxarmaq, yaxud yerini dəyişdirmək;
- Universitet əmlakının oğurlamaq;
- kitabxana fonduna ziyan vurmaq.
**ç) giriş-çıxış qaydalarına riayət etməmək:**
- Universitet tərəfindən təqdim edilmiş tələbə kartından istifadə etmədən Universitetə daxil olmaq və Universitetdən çıxmaq;
- tələbə kartını başqasına verməklə öz kartı vasitəsilə digər şəxslərin turniketdən keçidinə şərait yaratmaq;
- tələbə kartını itirmək və ya yararsız hala salmaq;
- şəxsi nəqliyyat vasitəsi ilə icazəsiz olaraq Universitetin ərazisinə daxil olmaq, nəqliyyat vasitəsini Universitet ərazisində nəzərdə tutulmamış yerdə saxlamaq.
**d) plagiat, saxtalaşdırma və informasiyanın təhrif edilməsi:**
- plagiat hallarına yol vermək;

- özü ilə bağlı zəruri məlumatları vaxtında və təhrif etmədən, düzgün şəkildə fakültə dekanlığına təqdim etməmək, bu məlumatlarda baş verən sonrakı dəyişikliklər barədə fakültə dekanlığını məlumatlandırmamaq;
- Universitet tərəfindən onun adına verilmiş sənədlərdə, həmçinin tədris prosesində istifadə üçün nəzərdə tutulan sənədlərdə saxtalaşdırma və pozuntu hallarına yol vermək;
**e) Universitetdaxili digər davranış qaydalarının pozulması:**
- Universitetə məişət və istirahət üçün nəzərdə tutulmuş geyimdə (şort, bric, alt köynəyi, qısa köynək, ziyafət geyimləri ilə) gəlmək;
- kart və digər qumar oyunları oynamaq;
- yandırıcı, partlayıcı, kəsici, deşici və digər bu növ əşyalarla Universitet binasına daxil olmaq;
- dava-dalaş salmaq (yaxud dava-dalaşda iştirak etmək), səs-küy yaratmaq, ucadan danışmaq, qeyri-etik danışıqlardan istifadə etmək, qeyri-əxlaqı davranışlara yol vermək, başqalarını təhqir etmək, tədris prosesinin normal gedişinə və iş rejiminə ciddi şəkildə mane olan digər hərəkətləri törətmək;
- Universitet binasında və həyətində sanitar normalarına əməl etməmək, təmizlik və səliqə-sahmanı pozan hərəkətlərə yol vermək;
- icazəsiz olaraq elanlar yapşıdırmaq, yaxud vurulmuş elanları qoparmaq;
- istehsal və kommersiya sirrinin gizli saxlanılması üzrə öhdəlikləri yerinə yetirməmək və bu sirri yaymaq;
- satış məqsədi üçün hər hansı məhsulları Universitetə gətirmək, bu cür məhsulların ticarətini keçirmək;
- binada və həyətdə xüsusi nəzərdə tutulmuş yerlərdən kənarda siqaret çəkmək;
- Universitet kitabxanasında kitabxananın Əsasnaməsi ilə müəyyən edilmiş daxili davranış, nizam-intizam rejiminə əməl etməmək.
- məsul şəxslərin intizam qaydalarına riayət etmə barədə çağırış və tələblərinə qarşı etinasızlıq göstərmək, mühafizə xidmətinin tələblərinə tabe olmamaq;
- alkoqollu içkilər, narkotik vasitələr və psixotrop, toksik və digər zəhərli maddələr qəbul edərək sərxoş vəziyyətdə Universitetə gəlmək, habelə Universitetə gəldikdən sonra həmin içkiləri və ya maddələri qəbul edərək sərxoş vəziyyətdə olmaq;
- dövlət və dövlətçilik əleyhinə təbliğat aparmaq;
- dini təbliğat aparmaq;
- Universitet əməkdaşlarının (pedaqoji və digər işçilərinin) və təhsilalanlarının şərəf və ləyaqətini təhqir etmək, onlara qarşı fiziki və mənəvi zorakılığa yol vermək;
- bilavasitə Universitetdə olduğu vaxtda inzibati xətalara və ya cinayət tərkibi olan ictimai-təhlükəli əməllərə yol vermək;
- Universitetin qanuni tələblərinə və qərarlarına qarşı çıxmaq və əks-təbliğat aparmaq, həmçinin təhrikçi təşəbbüslər göstərmək;
- Universitet əməkdaşlarının və bütövlükdə Universitetin fəaliyyəti ilə bağlı qəsdən təhrif olunmuş informasiya yaymaq;
- öz hərəkətləri ilə Universitetin, təhsil prosesi iştirakçılarının işgüzar nüfuzuna və imicinə xələl gətirmək, onlara maddi və mənəvi ziyan vurmaq, qanuni mənafeyinin pozulması ilə nəticələnən digər hərəkətlərə yol vermək;
- müqavilə öhdəliklərini yerinə yetirməmək, Universitetin Nizamnaməsinin və bu Qaydaların tələblərinin pozulması ilə nəticələnən digər hərəkətlərə yol vermək.
8.2. Təhsilalanlar (dinləyicilər) tərəfindən yol verilən aşağıdakı hərəkətlər Universitetin daxili nizam-intizam qaydalarının kobud şəkildə pozuntusu hesab edilir:
- bu Qaydaların 8.1-ci maddəsinin "e" bəndinin 12-20-ci abzaslarında müəyyən edilmiş hallar;
- 3 ay davamlı olaraq dərslərdə iştirak etməmək və bu müddətdə Universitetlə əlaqə saxlamamaq.
8.3. İntizam xətası törətmiş təhsilalan öz əməlinin hüquqazidd xarakterini dərk etmiş, onun zərərli nəticələrini qabaqcadan görmüş və belə nəticələrin baş verməsinə şüurlu surətdə yol vermişdirsə, bu xəta qəsdən törədilmiş intizam xətası hesab olunur.
8.4. İntizam xətası törətmiş təhsilalan lazımi diqqət və ehtiyatlılıq göstərərək öz əməlinin zərərli nəticələr verə biləcəyi imkanını görməmişdirsə, bu xəta ehtiyatsızlıqdan törədilmiş intizam xətası hesab olunur.

## 9. İntizam məsuliyyəti

9.1. Təhsilalanların (dinləyicilərin) intizam məsuliyyətinə cəlb edilməsi şərtləri:
9.1.1.Təhsilalanlar (dinləyicilər) təhsil sahəsində normativ-hüquqi aktlarla, Universitetin Nizamnaməsi və bu Qaydalarla müəyyən edilmiş vəzifələrini və təhsil xidmətinin göstərilməsi haqqında Universitetlə

bağlanmış müqavilə üzrə öhdəliklərini yerinə yetirmədikdə, hüquqlarından sui-istifadə edərək bu Qaydaların 8.1-ci maddəsində müəyyənləşdirilmiş hərəkətlərə yol verdikdə intizam xətası törətmiş hesab edilir və intizam məsuliyyətinə cəlb edilirlər.

9.1.2. Təhsilalanların (dinləyicilərin) intizam məsuliyyətinə cəlb edilməsi onu qanunlara əməl edilməsi ruhunda tərbiyələndirmək, intizam xətası törətmiş təhsilalan, həmçinin digər təhsilalanlar tərəfindən yeni intizam xətası törədilməsinin qarşısını almaq məqsədi daşıyır.

9.1.3.Təhsilalanların (dinləyicilərin) törətdiyi əmələ görə intizam məsuliyyətinə cəlb olunması onlara intizam tənbehi verməklə həyata keçirilir.

9.1.4.Törətdikləri xətanın ağırlıq dərəcəsindən asılı olaraq təhsilalanlara (dinləyicilərə) aşağıdakı intizam tənbehlərindən biri tətbiq edilə bilər:

a) dərsdən kənarlaşdırmaq;
b) imtahandan kənarlaşdırmaq;
c) imtahan nəticələrini ləğv etmək;
d) töhmət;
e) sonuncu xəbərdarlıqla şiddətli töhmət;
f) təhsilalanlar (dinləyicilər) sırasından xaric etmək.

9.1.5. İntizam tənbehi verərkən təhsilalanın (dinləyicinin) şəxsiyyəti, kollektivdəki nüfuzu, törətdiyi xətanın xarakteri və həmin əmələ öz münasibəti nəzərə alınır.

9.1.6. Bu Qaydaların 8.1-ci maddəsinin "a" və "b" bəndləri, həmçinin 8.2-ci maddəsi ilə nəzərdə tutulmuş hallar istisna edilməklə, törədilmiş digər hallara görə töhmət, yaxud sonuncu xəbərdarlıqla şiddətli töhmət verilə bilər. Qaydaların 8.1-ci maddəsinin "c" bəndi ilə müəyyən edilmiş hallarda Universitet əmlakına qarşı yönəldilmiş hərəkətlərə yol verən təhsilalan Universitetə vurduğu maddi zərəri ödəməlidir (kitabxana fonduna vurulan ziyana: kitabın itirilməsinə, cırılmasına görə müstəsna hallarda həmin kitabın, ya da kitabxanaçının təyin etdiyi 2 uyğun kitabın alınıb fonda verilməsi ilə əvəzləşdirilmə aparılmasına icazə verilir).

**9.1.7. Dərsdən kənarlaşdırmaq**

Bu Qaydaların 8.1-ci maddəsinin "a" bəndi ilə müəyyənləşdirilmiş hərəkətlərə yol verən, fənn müəllimlərinin qanuni tələblərinə, fənn sillabusunda müəyyənləşdirdiyi qaydalara tabe olmayan təhsilalanlar intizam xətası törətmiş hesab edilir və müəyyən müddət ərzində dərsdən kənarlaşdırılır.

Dərsdən kənarlaşdırma müddəti:

- 1 (bir) həftə müddətinədək, fənn müəlliminin təqdimatı əsasında fakültə dekanı tərəfindən tətbiq edilir;
- 1 (bir) həftədən artıq, ən çoxu 1 (bir) ay müddətinədək, fakültə dekanının təqdimatı əsasında prorektorların (tədris və ümumi işlər üzrə) sərəncamı ilə tətbiq edilir;
- 1 (bir) aydan artıq müddətədək, prorektorların təqdimatı əsasında rektorun əmri (sərəncamı) ilə tətbiq edilir.

Fənn üzrə 2 dəfə dərsdən kənarlaşdırma cəzası almış təhsilalan həmin fənn üzrə dərsə buraxılmır.

Dərsdən kənarlaşdırma həmçinin təhsilalanın fərdi tədris planı üzrə götürdüyü fənlərə görə müəyyənləşdirilmiş təhsil haqqını ödəmədikdə, yaxud ödənişi gecikdirdikdə də tətbiq olunur.

**9.1.8. İmtahandan kənarlaşdırmaq**

Bu Qaydaların 8.1-ci maddəsinin "b" bəndi ilə müəyyənləşdirilmiş hərəkətləri törədən, imtahan prosesinin təşkili, keçirilməsi və biliyin qiymətləndirilməsi qaydalarının tələblərinə riayət etməyən, imtahan zamanı köçürmə hallarına yol verməklə imtahan qaydalarını pozan təhsilalan imtahandan kənarlaşdırılır. Bu halda təhsilalanlar imtahan otağından çıxarılır və ona "0" yazılmaqla nəticəsi "akademik borc" hesab edilir.

**9.1.9. imtahan nəticələrini ləğv etmək;**

Bu Qaydaların 8.1-ci maddəsinin "b" bəndi ilə müəyyənləşdirilmiş hərəkətlər imtahan başa çatdıqdan sonra videomüşahidə zamanı aşkar edildiyi halda da təhsilalan imtahan qaydalarını pozmuş hesab edilməklə nəticələri ləğv edilir.

**9.1.10. Universitetdən xaric etmək**

Universitetin daxili nizam-intizam qaydalarını kobud şəkildə (bu qaydaların 8.2-ci maddəsi ilə müəyyənləşdirilmiş hallarda) və ya dəfələrlə pozduqda təhsilalanlara Universitetdən xaric edilmə barədə intizam tənbehi tətbiq edilir.

9.1.11. Təhsilalana (dinləyiciyə) verilən bütün möhlət və güzəştlər ona tətbiq edilən intizam tənbehinin qüvvədə olduğu müddət bitənədək dayandırılır.

9.1.12. Təhsilalanın təhsil göstəriciləri, kollektivdəki nüfuzu, şəxsiyyəti, Universitetin ictimai və mədəni həyatında fəallıq səviyyəsi, törətdiyi xətanın xarakteri nəzərə alınmaqla intizam tənbehlərindən hər hansı biri tətbiq olunmadan ona yazılı xəbərdarlıq edilə bilər. Xəbərdarlıq intizam tənbehi sayılmır.
9.1.13. Xəbərdarlıq hüquqazidd əməlin yolverilməzliyi barədə şəxslərə edilən rəsmi xəbərdaredici intizam məsuliyyəti tədbiridir, ilk dəfə və ehtiyatsılıqdan törədilən intizam xətalarına görə tətbiq edilə bilər.

## 10. İntizam məsuliyyətinin tətbiqi qaydaları

10.1. İntizam tənbehi intizam xətasının aşkar edildiyi gündən bir ay keçənədək verilə bilər. İntizam xətasını törədən şəxsin xəstə olduğu, yaxud akademik məzuniyyətdə olduğu vaxt həmin müddətə daxil edilmir.
10.2. İntizam xətasının törədildiyi gündən altı ay keçdikdən sonra həmin xəta üzrə intizam tənbehi verilə bilməz.
10.3. İntizam xətasını törətmiş şəxsin akademik məzuniyyətdə olduğu, xəstə olduğu müddətdə intizam tənbehi verilmir.
10.4.İntizam tənbehi verilərkən aşağıdakı prinsiplərə əməl edilir:
- intizam tənbehi intizam xətasını törədən təqsirli şəxsə tətbiq edilir;
- məsuliyyət fərdi xarakter daşıyır, kollektivin hər hansı üzvünün hərəkətinə görə kollektivin məsuliyyətə cəlb edilməsinə yol verilmir;
- bir intizam xətasına görə bir intizam tənbehi tətbiq edilir;
- bir dəfə törədilən bir intizam xətasına görə eyni zamanda bir neçə intizam tənbehi verilə bilməz;
- bu Qaydalarda nəzərdə tutulmayan intizam tənbehi tədbirinin tətbiqi qadağan edilir;
- intizam tənbehi tətbiq edilməzdən əvvəl təqsirli şəxsə öz hərəkətini izah etmək və özünə bəraət imkanı (özünü müdafiə hüququ) verilir.
10.5. İntizam tənbehi tətbiq edilərkən aşağıdakı hallar nəzərə alınır:
a) törədilən xətanın xarakteri və ağırlıq dərəcəsi;
b) intizam xətası törədən şəxsin şəxsiyyətini xarakretizə edən hallar;
c) intizam xətası törədən şəxsin təqsirinin dərəcəsi;
ç) vurulan ziyanin dəyəri;
d) intizam tənbehini yüngülləşdirən və ağırlaşdıran hallar;
e) hadisənin qəsdən və ya ehtiyatsızlıqla törədilməsi;
ə) hadisənin baş vermə səbəbi və şəraiti;
f) intizam xətası törədən şəxsin səmimi peşmançılığı.
10.6.İntizam tənbehi tətbiq edilərkən, intizam xətası törətmiş şəxsin səmimi peşmançılığı məsuliyyəti yüngülləşdirən hal hesab edilsə də, təkrar nəzərə alına bilməz.
10.7. İntizam tənbehi tətbiq edilərkən aşağıdakılar məsuliyyəti ağırlaşdıran hallar hesab edilir:
a) səlahiyyətli şəxslərin intizam xətası hesab edilən hərəkətləri dayandırmaq barədə tələbinə baxmayaraq, bu hərəkətin davam etdirilməsi;
b) intizam tənbehi almış şəxsin eyni xətanı intizam tənbehinin qüvvədə olduğu müddətdə təkrar törətməsi;
c) intizam xətasının bir qrup şəxs tərəfindən törədilməsi;
ç) intizam xətasının qəsdən törədilməsi.
10.8. İntizam tənbehi vermək üçün aşağıdakı hallar sübut edilməlidir:
a) intizam xətası hadisəsi (intizam xətasının həqiqətən törədilməsi);
b) intizam xətası törətmiş şəxs;
c) intizam xətası törətməkdə şəxsin təqsiri;
d) intizam məsuliyyətini ağırlaşdıran və yüngülləşdirən hallar;
e) intizam xətası nəticəsində vurulan zərərin xarakteri və miqdarı.
10.9. İntizam xətasının baş verməsi faktı aşağıdakı sənədlərlə öz təsdiqini tapır:
a) intizam məsuliyyətinə cəlb edilmə barədə təqdimat *(Əlavə 3);*
b) intizam xətası törədən təhsilalanın izahatı *(Əlavə 4);*
10.9.1. İntizam xətası törədən şəxs izahat verməkdən imtina etdikdə bu barədə akt tərtib edili*r (Əlavə 5)*
10.10. İntizam xətasının törədilməsi faktı aşkar edildikdən dərhal sonra İntizam xətası haqqında protokol tərtib edilir. Protokol onu tərtib etmiş şəxs və intizam xətası törətmiş şəxs tərəfindən imzalanır. İntizam xətası törətmiş şəxs protokolu imzalamaqdan imtina etdikdə, bu barədə protokolda müvafiq qeyd aparılır. İntizam xətası törətmiş şəxs izahatlar və protokolun məzmunu barəsində öz mülahizələrini təqdim etmək,

habelə protokolu imzalamaqdan imtina etməsinin səbəblərini göstərmək hüquqları vardır. Onların bu izahatları və mülahizələri protokola əlavə olunur.
10.11. İntizam tənbehi rektorun əmri (tədris və ümumi işlər üzrə prorektorların sərəncamı) ilə verilir. Barəsində intizam tənbehi tətbiq edilmiş şəxs həmin əmrlə (sərəncamla, qərarla) tanış edilir, əmrin (sərəncamın, qərarın) surəti ona təqdim olunur, həmçinin əmr fakültənin elanlar lövhəsindən asılır və tələbə heyətinə elan olunur. İntizam tənbehi haqqında əmrin surəti intizam tənbehi alan şəxsin şəxsi işinə tikilir.
10.12. İntizam tənbehi verilməsi barədə əmrdə (sərəncamda, qərarda) şəxsin şərəf və ləyaqətini alçaldan, onun şəxsiyyətini, mənəvi hisslərini gözdən salan, habelə intizamsızlığına görə qisas almaq motivli məlumatlara yol verilmir.
10.13. İntizam tənbehi verilməmişdən əvvəl intizam xətasını törədən şəxsdən yazılı izahatın verilməsini tələb edilir. Yazılı izahat verməkdən imtina etmək intizam tənbehi verilməsini istisna etmir.
10.14. İntizam tənbehi verilən gündən altı ay müddətində qüvvədə olur.
10.15. İntizam tənbehi alan şəxs intizam tənbehindən nəticə çıxararaq öz vəzifələrini (funksiyalarını) yüksək səviyyədə yerinə yetirərsə, Universitetdaxili nizam-intizam qaydalarını pozmazsa, rektor (yaxud tədris və ümumi işlər üzrə prorektorlar) fərqləndirilmə qaydasında intizam tənbehini vaxtından əvvəl öz əmri (sərəncamı, qərarı) ilə ləğv edə bilər.
10.16. İntizam tənbehi alan şəxs intizam tənbehinin qüvvədə olduğu müddət ərzində öz vəzifələrini (funksiyalarını) yüksək peşəkarlıqla yerinə yetirdiyinə, Universitetdaxili intizam qaydalarına əməl etdiyinə görə bu Qaydaların 7.1-ci maddəsində nəzərdə tutulmuş hər hansı həvəsləndirmə vasitələri ilə mükafatlandırılarsa, ona verilmiş intizam tənbehi mükafatlandırıldığı gündən qüvvədən düşmüş hesab edilir.
10.17. İntizam tənbehi alan şəxs intizam tənbehi verilən zaman hüquqlarının pozulduğunu iddia edərsə, yenidən araşdırma aparılması üçün Universitetin rektoruna yazılı ərizə ilə müraciət edə bilər.
10.18. İntizam məsuliyyəti tədbirlərinin uçotu müvafiq fakültə dekanlığında xüsusi nəzərdə tutulmuş qeydiyyat jurnalı *(Əlavə 6)* (yaxud elektron qeydiyyat) üzrə aparılır.

## 11. İntizam tənbehi vermək səlahiyyəti olan şəxs

11.1. İntizam tənbehi rektor tərəfindən verilir. Bu Qaydalarda nəzərdə tutulmuş müəyyən hallarda, yaxud rektorun əmri ilə intizam tənbehi tətbiq etmək səlahiyyəti prorektorlara (tədris və ümumi işlər üzrə) və fakültə dekanına (9.1.7-ci bəndlə müəyyənləşdirilmiş halda) da verilə bilər. Bu Qaydaların 9.1.10-cu bəndi ilə müəyyənləşdirilmiş intizam tənbehi yalnız rektor tərəfindən verilir.
11.2. İntizam tənbehi rektor tərəfindən verildikdə onun əmri (sərəncamı) ilə, tədris və ümumi işlər üzrə prorektorlar tərəfindən verildikdə onların sərəncamı ilə rəsmiləşdirilir.
11.3. Universitetdə lazımi qayda yaradılmasını, qadağan olunmuş davranış, ümüməxlaqi və etik normaları pozan hərəkətlərin profilaktikası və aradan qaldırılmasını təmin etmək üçün Universitet mühafizə xidmətinin əməkdaşlarına aşağıdakı səlahiyyətlər verilir:
- videomüşahidə sistemi vasitəsilə Universitet binasında (auditoriya, dəhliz, tədris kabinetləri, giriş-çıxış) və həyətində tədris intizamına və davranış normalarına əməl edilməsi vəziyyətini nəzarətdə saxlamaq;
- intizam pozuntularını videomüşahidə sistemi vasitəsilə aşkar etmək və qeydə almaq, təqsirkar şəxsləri müəyyənləşdirmək, intizam pozuntusunu törədən təhsilalanın (təhsilalanların) tələbə kartının almaq, akt tərtib etmək və pozuntu baş verdiyi gün (müstəsna hallarda ən geçi 1 (bir) gün müddətinə) müvafiq fakültə dekanına məlumat vermək;
- ictimai qayda, əxlaqi norma pozuntusunun aradan qaldırılması və pozuntunu törədən şəxsin aşkara çıxarılması məqsədilə xüsusi zərurət yarandığı halda auditoriyaya və digər otaqlara daxil olmaq;
- ictimai qaydanı pozan şəxsi intizama dəvət etmək, tədris intizamını pozulmasına yönəlmiş hərəkətləri dayandırmasını tələb etmək, məsul şəxslərə baş vermiş intizam pozuntusu barədə məlumat vermək.